OLMADIM ŞAD

Olmadım bir ləhzə, yarəb, bu vətən küncündə şad,
Səbrim əksildi günü-gündən, qəmim oldu ziyad,
Bivəfa gördüm, kimə dünyada etdim etimad,
Çərxi-dun sübhü məsa oldu mənimlə kəcinad,
Əlaman, çərxi-sitəmkarın əlindən dad, dad.

Rəhmsiz səyyadi-çərxə seydvəş oldum şikar,
Dami-fəqrə payibənd etdi məni ol kəcmədar,
Mərdümi-iqbalimi çərx eylədi dərdə düçar,
Söndürüb iqbalımın şəmin edibdir tirətar,
Yetdi daim çərxi-bədxudən mənə zülmü fəsad.

Dövr zülm etdi mənə peyvəstə, çərci-bihicab,
Atəşi fərq içrə yandırdı məni, qıldı kabab.
Etmədi ahü fəqanimdən fələk şiçictinab,
Qalmayıb bir mu qədər ol zülmü qəmdən məndə tab
Aglar oldu halıma, əhvalım hər kəs qıldı yad.

Dərdü qəmdir bəstəri-eşq içrə hər gün həmdəmim,
Bir müalic tapmadım, ta eyləsin nəfi-qəmim,
Butcyi-dərdü qəm içrə yandı, məhv oldu tənim,
Böyləmi keçsin, rəvadırmı; həbibim, aləmim?
Bəs deyilmi, çərxi-dun eylər mənə bunca inad?

Gəldi könlüm təngə, Vahid, qüsseyi-dövrandən,
Yoxdu bir kimsə xəbər tutsun məni-nalandən,
Bedtər oldu xaneyi-dünya mənə zindandən,
Səbrü aramım kəsildi naləvü əfqandən,
Qüsseyi-dərdü bəladən olmadım bir ləhzə şad.

İMDAD QIL

Qardaşım, təhsili-elmə aç gözün, imdad qıl!
Elm oxu, bilmorrə cəhli xatirindən yad qıl!

Elmsiz insan olur daim bəlayə mübtəla,
Elm ilə dərdi kənar et, qəmli könlün şad qıl!

Köhləni-nəfsi dayandır, əqli parlat, et, gözüm,
Elm evin abad, cəhlin xanəsin bərbad qıl!

Məstsən qəflət şərabında, həmiyyət vaxıtdır,
Huşyar olmaqlığa öz xalqını mötad qıl!

Qıl vətən övladına təlim elmü sənəti,
Cəhldən qaytar tamamin, elmdə ustad qıl!

Qeyrlər icad edirlər telqraf, telfon, müdam,
Sən də bir məktəb vətən övladına icad qıl!

Xalqına fürsət var ikən xidmət et, Vahid, müdam,
Ta ki sən də bu sədaqətlə cahanda ad qıl!

DÜŞÜNCƏ

Ahım şərəri yetsə, nolur ərşi-bərinə,
Səbr etmək olurmu vətənin dərdi-sərinə?

Cəmşidi-cəmə, gör ki, zər axır nələr etdi,
Ey fəxr cləyən sübhü məsa simü zərinə?!

Bilməz vətənin qədrini ol kəs ki, dənidir,
Sərraf tanır gövhəri, yetcək nəzərinə.

Zahid, nə yatıbsan, hamı millətlər oyandı,
Qafil, gözün aç, uyma cəhalət səfərinə.

Cəngahidə düşməndən həras eyləməz əsla,
Bir mərd ki, məğrur ola daim hünərinə.

Bir Kəbeyi-əhli ürəfadır vətən, ey dil!
Şənü şərəfi yetmiş onun ərşi-bərinə.

Vahiddən umub, şerinə naqis demə, zira
Bitəcrübədir, görməmiş əsarü qərinə.

ETMƏZ

Ləzzəti-xeyri görən şər işə iqdam etməz,
Mərdi-aqil özünü nakəsi-əyyam etməz.

Bir kəs ki ola bil əslü nəsəbdən ali,
Aqibət mərd isə kəndisini bədnam etməz.

Mərdi-baqeyrət olan qeyrət ilə gün keçirər.
Yəni bir ölmək üçün düşmənə ikram etməz.

Ədlü insafı olan zülm eləməz məzlumə,
Rəhmsizlik kişini sahibi-ehkam etməz.

Morifət badəsini nuş edə hər kimsə əgər,
Bir də, zənnimcə, o heç mayili-günfam etməz.

Zahidasa füqəra malına tikməz gözünü,
Nücəbazadə özün dəhrdə bədnam etməz.

Vahid, hər kimsə ki, öz nəfü ziyanın bilsə,
Olar asudə cahan içrə, günün şam etməz.

ƏDALƏT

İzhar ola gər pərtövi-ruxsari-ədalət,
Dünyanı tutar büsbütün ənvari-ədalət.
Can nəqdini bazari-cahanda tutar əldə,
Şövqilə ola kim ki, xiridari-ədalət.

Can bəxş edər əmvatə misali-dəmi-İsa,
Hər bəzmdə kim zikr ola küftari-ədalət.

Zöhhak kimi hər kim edə zülmdə tüğyan,
Fövq eylər onu Gaveyi-əhrari-ədalət.

Hər kəs ki, dilər dəf qıla düşməni-xəlqi,
Alsın əlinə tiği-şərərbari-ədalət.

Qərq eylər onu Nildə Musanın ilahi,
Hər kim edə Firon kimi inkari-ədalət.

Xurşidi-ədalətlə cahan olsa münəvvər,
Zalimlərə izhar olar asari-ədalət.

Sancılsın ədalətlə tərazuyi-sədaqət
Ta gərm ola bundan belə bazari-ədalət.

Xalqın evi bərbad olamaz bil bunu, Vahid!
Hərgah onu təmir edə memari-ədalət.

HÜRRİYYƏT

Xoş olmasaydı cahanda məali-hürriyyət,
Həqiqətən, olamazdı məqali-hürriyyət.

Olardı tirə bəşər çeşminə cahan yeksər,
Görünməsəydi günəştək cəmali-hürriyyət.

Pozar, bütün dağıdar əbri-zülmü ədl ilə,
Ki, yetdikcə kəmalə hilali-hürriyyət.

Həmişə şeştəri-heyrətdə şahi mat eylər,
Gələndə gərdişə əsbi-cidali-hürriyyət.
Yetirsə mehdi-cahan min nəfər səadətmənd,
Zəmanə bir də yetirməz misali-hürriyyət.

Görüm ki, xanəsi bərbad ola o bədxahın,
Bu isə qəsdi ola payimali-hürriyyət.

Tamam əsrdə naqis qalır hilal kimi,
Hər ol kəs etməsə kəsbi-kəmali-hürriyyət.

Gərək ki, rişəsi zülmün kəsilsin aləmdə,
"Ədalət" ilə ucalsın nəhali-hürriyyət.

Sanırsa zahid özün əhli-mərifət, əmma,
Bilirmi, nolduğun olsa suali-hürriyyət?

1921-1939

MƏKTƏB NƏ DEMƏKDİR?

Məktəb demək insanlar üçün xaneyi-ibrət,
Məktəbdir edən növi-bəşər ruhunu rahət.
Məktəbdir işıqlandıran afaqı sərasər,
Məktəblə fəqət parələnir pərdeyi-zülmət.
Məktəb əgər olmazsa bu dünya üzərində,
Məhv eyləyər insanları bilmərrə cəhalət.
Şənü şərəf insanlara məktəblədir ancaq,
Məktəbsiz olan kimsədə zənn etmə ləyaqət!
Cahilləri məktəbdir edən mərdi-xirədmənd,
Vəhşiləri məktəbdir edən vaqifi-hikmət.
Məktəblə bilər xalq nədir xilqəti-alom,
Məktəbdir olan kaşifi-əsrari-təbiət.
Məktəbdir edən zülmdən insanları azad,
Məktəblə olur məqsədə nail bəşəriyyət.
İnsan, bəli, məktəblə olur hər işə dara,
Məktəblə tapar xəlqi-cahan rahi-həqiqət.
Məktəblə fəqət göstərir övladi-zəmanə
Tarixdə, həm elmdə, sənətdə məharət.

ƏLACIMIZ

Nə Xızra bağlıdır, nə Məsihə əlacımız,
Zəhmətlə hasil olmalıdır ehtiyacımız!

Qılsaq kədərdən ayineyi-qəlbi saf əgər,
Haşa ki, səngi-tən ilə sınsın zücacımız.

Bazari-rəzmə çəksən əgər can mətaini,
Şəmşiri-abidar ilə artar rəvacımız.

Hürriyyət ilə nəşvü nüma bulmuşuz müdam,
Qılmaz qəbul qeydi-əsarət məzacımız.

Bir zərrə ilə məhv qılar əbrü-zülməti,
Olduqca nuri-ədl ilə rövşən səracımız.

Düşmən sözünə bavər edib qəflət etməriz,
Tutmaz dənilər ilə bizim imtizacımız.

Qət etməyincə rişeyi-ömrünü zalımın,
Hərgiz cahanda olmayacaq ibtihacımız.

Daim gərək biz əsgər olaq, istəsək nicat,
Yox bundan özgə iştə cahanda əlacımız.

HÜRRİYYƏT TƏRANƏSİ

Bizi mərdanə doğmuşdur təbiət ibtidasından,
Ədunun qorxmarıq qanlar tökən növki-cidasından.

Ölüncə şikvəyə dil açmarıq ədayi-birəhmin,
Əgər yüz yol kəsilsə başımız tiği-cəfasından.

Ədulər bağrını çatlatmışıq meydani-hərb içrə,
Biz ol fatehlərik haqqın zəfərpərvər sədasından.

Şərari-tiğimizdən hər zaman düşmən fərar etmiş,
Qaçar xəffaşi-bədtinət necə şəmsin ziyasından.

Şəhid olmaq fəqət hürriyyət uğrunda səadətdir,
Əsarətlə həyatın bisəmər zövqü səfasından.

Sevərsək Gavətək azadəlik, məzlumi-dünyanı
Xilas etmək gərək Zöhhakı-əsrin hər bəlasından.

Əgər məzlumu qurtarmaqsa məqsəd zülmi-zalımdan,
Gərək bilmərrə yıxmaq qəlcyi-zülmü binasından.

HÜRRİYYƏT TƏRANƏSİ

Artardı zülmü zillət içində əzabımız,
Göstərməsəydi mehri-ruxin inqilabımız.

Məzlumə zülm edən yetəcəkdir cəzasına,
İştə budur, ədulara qəti cavabımız.

Bədxahi-xalq olan görəcək öz qiyamətin,
Vəkta, quruldu ədlilə yövməl hesabımız.

Yetməzmi, eyşü nuş ilə sərməst olan dəni,
Fəqr ölkəsində xuni-dil olmuş şərabımız.

Bilmərrə məhv eyləyəcək əbri-zülməti,
Saçsa cahanə nuri-ruxin afitabımız.

Qılmaq xilas acizi zənciri-zülmdən,
Yüz dəfə Kəbədən olur artıq səvabımız.

Aydın ürəkli şəxslərin aşinasıyıq,
Çirkinlər ilə olmaz, əvət, intisabımız.

Şeytan fikirli növi-bəşər canın almağa,
Parlar səmayi-ədldə tiri-şəhabımız.

Ölsək də xoşdur, haqqü ədalət yolunda biz,
Düşmən min olsa zərrəcə yox iztirabımız.

ƏMƏL ŞƏRARƏSİ

Məqsud yetişməksə əgər fəzlü kəmalə,
Soy etməliyik elmə, dönərsək də hilalə.

Heç yerdə tərəqqi eləməz elmsiz insan,
Bibəhrə olur gər su verilməzsə nihalə.

Halın nəzərə almalı məzlumi-cahanın,
Bitərbiyəlikdən yetişib cümlə məlalə.

Məzlumi-cahan nəfinə cəhd etməliyik biz,
Bu hali fəqət salmalı hər ləhzə xəyalə.

Azğınlara göstərməliyik rahi-həqiqət,
Daim buna dair yazaq, əlbəttə, məqalə.

Etməzmi kifayət, sitəmi-cövri-ədudən
Əbnayi-zaman yetmədədir gündə zəvalə.

Cəhd etməli azadəlik uğrunda həmişə
Təbdil eləyək hicri-qəmin eyşü vüsalə.

Bir an füqəra sinfi gərək yatmaya rahət,
İbrətlə fəqət baxmalı keyfiyyəti-halə.

Düşmən çalışır yıxmağa əhrari-zamanı,
Haydı, ona qarşı çıxalım cəngü cidalə!

UCAL MƏLƏKİM!

Qadınla yüksələcək şəni Azəristanın,
Olursa tərbiyə uğrunda səyi nisvanın.

Bəşər tərəqqi edər tərbiyətlə dünyada,
Fənadır aqibəti tərbiyətsiz insanın.

Qadından aslıdır ətfalə tərbiyət vermək,
Bunu tələb cləyir iqtizası dövranın.

Çalış bu tərbiyət uğrunda mərd igidlər tək,
Baxıb şəfəqqətinə aləm olsun heyranın.

Çəkildi pərdeyi-zülmət, yıxıldı əhli-nifaq,
Yayıldı aləmə gün tək ziyası ürfanın.

Götür o pərdəni üzdən, cahanı qıl rövşən.
Binayi-zülməti yıx, aç üzari-tabanın.

Şərəflə ömrünü sərf et maarif uğrunda.
Gözətlə izzəti-nəfsin, unutma vicdanın.

Ucal, ucal, mələkim! Yüksəlir sənin lə həyat,
Ucal ki, yüksələ aləmdə şöhrətü şanın.

TOFİK FİKRƏTƏ BƏNZƏTMƏ

Bir yerdə ki, hala ucalırkən bəşəriyyət,
Vəhşiliyi pamal cləyirkən mədəniyyət,
Saçmış şəfəqin gün kimi dünyalara ürfan,
Zülmətdən uzaqlaşmadadır aləmi-insan;
Elmin, hünərin rütbəsi bir payəyə çatmış,
İnsanları şiş göylərə hətta əl uzatmış,
Diqqətlə düşündükcə bu gün dövri-zamanı
Bambaşqa görürsən bütün övzayi-cahanı.
Məktəb – deyə hər kimsədə bir zövq nümayan,
Sənət – deyə hər kimsədə bir çöhreyi-xəndan.
İnsanlara lazımdır həqiqətdə çalışsın,
Olduqca gərək elm ilə, ürfanla alışsın.
Vaxta bütün ətrafı tutub elm ilə ürfan,
Bəhru-bəri hər dəmdə dolaşmaq olur asan.
Yalnız nə ki, bu yolda çalışsın gərək ərlər,
Onlarla qadınlar da çalışmaqda bərabər.
Zira qurucu böylə qurub tərzi-həyatı,
Bizdən do həyatın budur ancaq tələbatı!

ZƏRBƏÇİLƏR

Bu gün fitlər gün doğmadan səslondi,
Dəniz coşa gəldi, göllər tərpəndi.
Təkərlər oxudu, zindan can dedi,
Qəlbimə zəhmətdən bir fərəh endi.

"An"lar keçir, dəqiqələr yürüyür...
Kürələr ağzından atəş püskürür.
Seçmək olmaz usta kimdi, fəhlə kim,
Bu sevgiyə, eşqə təkərlər gülür.

Təkərlər fırlanır, zindan hayqırır,
Zərbəçi qolları düşməni sıxır...
Qabarlı əllərdən, gülər üzlərdən
Bir an keçir yeni bir alət çıxır.

Çəkicini bərk vur, zərbəçi yoldaş,
Əks-səda versin sənə dağü daş.
Sosializm tarixinə yazılır sənin
Çəkdiyin zəhmətin, qan-tərin, qardaş!

ÖLKƏMİZİN

Salıbdır aləmə şöhrət səfası ölkəmizin,
Gözəlləşir günü-gündən binası ölkəmizin.

Baharda çölləri çulğar çiçəklərin qoxusu,
Çəmənlərində bitən dadlı meyvədir çoxusu.
Çayı, balı, düyüsü, çəltiyi, gözəl lumusu...
Əzəldən hər yanı tutmuş sədası ölkəmizin.

Ətirli, güllü, yaşıl dağlarında laləsi var,
Əlində hər birinin bir qızıl piyaləsi var,
Səfalı çeşmələri, ruh açan şolaləsi var,
Dirildir aləmi abü havası ölkəmizin.

Gəlin kimi duman altında gizlənib meşəsi,
Buludların olub eşqində ağlamaq peşəsi.
Gözəllik artırır hər bir ağacda öz rişəsi,
Bəzəkli quşlar olub aşinası ölkəmizin.

Süzər gölündə gözəl durnalar, gözəl qazlar,
Bəzənmiş ay kimi kolxozda işləyən qızlar.
Bir özgə ləzzət alırlar hünərli kolxozlar,
Olubdu hər yeri ruhun qəzası ölkəmizin.

Gözəl vətənmizə fabrik-zavod gözəl yaraşır,
Yeni binaları, məktəbləri qədərdən aşır.
Traktoru, maşını hər yeri gəzib dolaşır,
Var indi texnikada ixtisası ölkəmizin.

Daşı, duzu, mazutu, torpağı cavahirdir,
Xəzinələr elimin hər yerində zahirdir.
Bax indi gör yeni nəsli ədibü şairdir,
Füzulilər yetiribdir ziyası ölkəmizin.

Yüz illər ilə bizi bəy, xan işlədib yordu,
Şərəfli xalqımızı incidib, qanın sordu.
Vətənmiz indi deyil zülm edənlərin yurdu,
Sovet hökumətidir rəhnüması ölkəmizin.

Bizə yaxın gələ bilmək kimin cəsarətidir?!
Vətənmiz indi azad xalqlar vilayətidir.
Leninə – partiyaya ellərin məhəbbətidir
Qızıl çiçəklər açıbdır fəzası ölkəmizin.

Bu fəxrdir mənə, Vahid ki, xalq şairiyəm,
Böyük Füzulilərin xaki-payinin biriyəm,
Bütün bəşər yaşadıqca mən ölmərəm, diriyəm,
Ucaltdı ömrümü nəşvü nüması ölkəmizin!

SABİRƏ

Sabir! Ey möhtərəm böyük şair!
Şerdə, nəzm, nəsrdə mahir.
Yazdığın dahiyanə məzhəkələr
Göstərir xalq içində möcüzələr.
Bəllidir məncə hər kəsə hünərin,
Oxunur hər bir ölkədə əsərin,
Əgər ölsən də, qəm deyil, zira
Etdiyin fikri xalq edir icra.
Dad edərdin həmişə: "Hürriyyət!"

O əsarətdə gördüyün millət
İndi azadə ömr edir, xürrəm,
Bitdi məzlumu ağladan matəm...
Bəy, xanın qalmamışdır asarı,
Onları məhv qıldıq elçarı.
Kəndlinin öz əlindədir torpaq,
Hamının keyfi kök, damağı da çağ.
İşləyirlər həvəslə kolxozda,
Hamı rahətdi qışda, həm yazda.
Mollalar söndülər bütün-bütünə,
Onda dönmüşdülər çoban itinə.
Əridi yağla bəslənən qarnı,
Bir təpik gördü zalımın karını.
Bəzən az-maz görünsə də arabir,
Müztərib halda qorxusundan əsir.
Bizi gördükdə quyruğun bulayır,
Qurd kimi şöngəyib, durub ulayır.
İndi bir dərbədər uşaq yoxdur,
Onların zəhmətin çəkən çoxdur.
Naxələf bilmə yüksələn elini,
Qurdular hər tərəfdə heykəlini.
Bir də sızlarmı qəlbi-məcruhun?
Bizi, əlbəttə, seyr edir ruhun.
Bu təfaxir sənə kifayətdir,
Millətin istəyincə rahətdir.
Öldün, əfsuslar ki, bihörmət,
Vermədi, varlılar sənə qiymət.
Gər olaydın Sovet zamanında,
Şərəfin çoxdu kütlə yanında.
Sənə qiymət qoyardı cəmiyyət,
Yaşayardın həmişə biminnət.
Necə şairlər indi xoş güzəran
Keçirirlər günəş kimi xəndan.
Bu bizimçin böyük səadətdr,
Şanlı, tarixi bir şərafətdir.

MƏNİM SƏSİM

Çal, aşıq, oxuyum bir el mahnısı,
Sazında dinləsin tellər səsimi.
Yurdumun qocaman bir bülbülüyəm,
Eşitsin ölkələr, ellər səsimi.

"Ərağ"ı "Rast" qıl, çal "Şahnaz"la,
Muğamı başlayım "Şur"ü "Hicaz"la,
Dünyanı coşdurum bu xoş avazla,
Aparsın hər yana yellər səsimi.

Qoy səsim ən uca dağlara yetsin,
Hava dalğalansın, dumanlar getsin,
Dərələr, təpələr hərəkət etsin,
Öyrənsin nəhrlər, sellər səsimi.

İçilsin toylarda sərin qımızlar,
Oynasın bir yerdə oğlanlar, qızlar.
Türkmən elləri, igid qırğızlar,
Qazaxlar, özbəklər dinlər səsimi.

Rus, erməni, gürcü can bir qardaşıq,
Tacik, tatar, beloruslar yoldaşıq,
Biz hamımız birik, bir vətəndaşıq,
Səslər Ukraynada çöllər səsimi.

Yalan söz bilmərəm, sözüm gerçəkdir,
Ölkəmiz günəşdən şəndir, göyçəkdir,
Bütün yaşıllıqdır, güldür, çiçəkdir,
Alqışlar bülbüllər, güllər səsimi.

Şairəm, sevgimə uyğundur ölkəm,
Əməkçi xalqımın dostuyam möhkəm,
Düşmən nə eylərsə etsin, qəmi kəm,
Kəsə bilməz xain əllər səsimi.

Budur dilimizin gözəl şüarı,
Sədaqətlə hər bir oğlan, qız, qarı
Seçib-seçilməyə var ixtiyarı.
Sevər azad olan dillər səsimi.

Zalımlar seçkidən bütün qovuldu,
Od tutdu xainlər, külü sovruldu.
Düşmənin gözləri çıxdı, ovuldu,
Zəfərlər qoynunda bəslər səsimi.

Xalqımız xoş günə çıxandan bəri,
Leninin adıdır dillər əzbəri,
Heç zaman unutmaz Vahid rəhbəri,
Yazsınlar tarixə illər səsimi.

BİZDƏDİR

Həyat bağçasının bağbanı bizik,
Yarpağı söz açan güllər bizdədir.
Bizdən ilham alır şeyda bülbüllər,
Nəğməyə can verən dillər bizdədir!

Şairim! İncə söz ustadı bizik,
Böyük Vaqiflərin övladı bizik.
Sənət dünyasının Fərhadı bizik,
Dağlara səs salan ellər bizdədir!

Dərələrdən axan gümüş bulaqlar,
Göylərə baş çəkən dumanlı dağlar.
Sünbüllü tarlalar, çiçəkli bağlar,
Al-əlvan geyinmiş çöllər bizdədir!

Ətirli bağların sarmaşığıyıq,
Elin bəzəyiyik, yaraşığıyıq.
Eldən törənmişik, el aşığıyıq,
Uca boylar, nazik bellər bizdədir!

İnsan sevərmi heç ruhsuz gözəli,
Şairin olmasa şeiri, qəzəli.
Aşığın olarmı sözü məzəli?
Sazı dilləndirən tellər bizdədir!

Dünyamız nəşəylə, keflə doludur:
Biz gedən doğru yol – Lenin yoludur.
Qolumuz rəhbərin polad qoludur,
Qüvvətdən düşməyən əllər bizdədir!

Vahidəm, qüssədən, qəmdən azadam,
Xalqımın dostuyam, yadlara yadam.
Bəzəkli ölkəmə baxdıqca şadam,
Yaşılbaş sonalı göllər bizdədir!

SAMUR MARŞI

Nə kəsib durmusan yüksək dağları?
Susuzluqdan yanır gül budaqları,
Yolunu gözləyir Bakı bağları.
Bizimdə ətrafa bir dolan, Samur!

Kanalın başında körpü salınır,
Elin zəfər marşı hər gün çalınır,
Qudurmuş çayların köpü alınır,
Ey coşub dağlara səs salan, Samur!

Bizim də çöllərin ruhun tazala,
Yayılıb şöhrətin elə, mahala,
Özün gələcəksən axır kanala,
Yalvara-yalvara, bunu qan, Samur!

Sənə qiymət verir böyük gələcək,
Sənlə çöllərin üzü güləcək.
Gəl bizim yerlərə, nazını çəkək,
Xidmətində duraq hər zaman, Samur!

Bizə həmişəlik bu şad bayramı,
Oktyabr verib, eşidib hamı.
Bu xoş gündən alır ellər ilhamı,
Sən də gəl ol bizə mehriban, Samur!
Ey coşub dağlara səs salan Samur!

BİZİM YERDƏDİR

Ay aşıq, söhbət aç güldən, çiçəkdən,
Çəmənlər zinəti bizim yerdədir.
Bülbüllər zövq alır güllərimizdən,
Baharın ləzzəti bizim yerdədir.

Çal, oxu şur ilə çoban-bayatı,
Sazında təriflə bu şən həyatı.
Ətirli gülləri, bağı, bağatı,
Gözəllik xilqəti bizim yerdədir.

Elimdən, arxamdan, qəm uzaqlaşır,
Zövqümüz, nəşəmiz həddindən aşır.
Xalqımız fərəhlə gülüb, oynaşır,
İnsan səadəti bizim yerdədir.

Sazın, kamançanın, qarmonun, tarın,
Oxuyub-çalanın, gülün, baharın.
Ədibin, şairin, hər sənətkarın,
Ən böyük qiyməti bizim yerdədir.

Nə tarixlərdə var, nə başqa dildə,
Çoxuşaqlı qadın varmı bir eldə
Hökumətdən alsın bir min hər ildə?
Analıq hörməti bizim yerdədir.

Faşistin zülmünə dünyalar baxır,
Analar bağrına süngülər taxır.
Körpə uşaqları yandırıb-yaxır,
Bala məhəbbəti bizim yerdədir.

7 noyabrdan aldıq ilhamı,
Şadlıqla keçirdik bu şən bayramı.
Dünya yoxsulları sevinir hamı,
Fəhlə hökuməti bizim yerdədir.

Bir çox bayramları gördüksə əgər,
Bugünkü bayrammız hamsına dəyər!
Bu xoş günü görən sevinməz məyər?
Könüllər bəhcəti bizim yerdədir.

Silinsin dünyadan boş həngamələr,
Səslənsin dillərdə coşqun nəğmələr.
Yazılsın rəhbərə təbriknamələr,
Dünyalar cənnəti bizim yerdədir.

BURUQ MAHNISI

Buruqda çıxmışam göylə yarışa,
Bizə günəş, ay eyləyir tamaşa.
Borularla qara neftimiz axır,
Elə bil ki, göydə ildırım çaxır.
Mator fırlanır,
İşıqlar yanır.
Gündə varlanır
Qızıl ölkəmiz!

Qəlbimdə canlanır sevgi, məhəbbət,
Bəxtiyar xalqıma bəslərəm hörmət.
Mənə ilham verən azad ölkəmdir,
Elin mərd oğluyam qolumda qüvvət.
Mator fırlanır,
İşıqlar yanır.
Gündə varlanır
Qızıl ölkəmiz!

Xəyalım quş kimi açıb qol-qanad,
İşlədikcə mənə xoş gəlir həyat.

Baxdıqca yurduma açılır könlüm,
Rəqs edir qarşımda bütün kainat;
Mator fırlanır,
İşıqlar yanır.
Gündə varlanır
Qızıl ölkəmiz!

Mübariz xalqımın çoxdu hünəri,
Çıraqban eyləmiş kəndi, şəhəri...
Çıxardar zahirə polad qollarım
Təbiət gizlədən xəzinələri.
Mator fırlanır,
İşıqlar yanır.
Gündə varlanır
Qızıl ölkəmiz!

Günəşlə çıxıram birgə döyüşə,
Həvəslə gedirəm hər gün mən işə.
Torpağın altından çıxardaraq mən,
Verirəm ölkəmə məhsul həmişə,
Mator fırlanır,
İşıqlar yanır.
Gündə varlanır
Qızıl ölkəmiz!

AZAD QADIN

Gözəl desən gözələm mən, pəri desən pəriyəm,
Məni sevən igidin mən sevimli dilbəriyəm.

Mənim həmişə yerim pak olan könüllərdir,
Bilikdə, işdə, ləyatqətdə dillər əzbəriyəm.

Silahım əldə mənim elmdir, maarifdir,
Azadlıq ellərinin qəhrəman bir əsgəriyəm.

Şərəfli, sevgili yurdum Sovetlər ölkəsidir,
Günəşdən alnı açıq xalqımın münəvvəriyəm.

Əl açsa cəbhəmizə düşmənin gözün ovaram,
Faşistə zərbə çalan mərd igid bərabəriyəm.

Mənimlə parlayacaq gənc nəsli yurdumuzun,
Bugünkü əsrimizin mən işıqlı ülkəriyəm.

Qanadlanıb uçaram nazənin səmalərdə,
Ayın gözəlliyi, ulduzların da zivəriyəm.

Mənim səadətim öz xalqımın səadətidir,
Bu bəxtiyar Vətənin mən də nazpərvəriyəm.

Həmişə eşqdə bülbül gülün fədası olur,
Vəfalı dilbərimin mən də bir səməndəriyəm.

SƏNİN

Ey Tiflisə gedən Bakı gözəli,
Yayıldı ellərə sorağın sənin.
Sünbüllər açıldı, güllər qızardı,
Dəyərkən Tiflisə ayağın sənin.

Tirmənin üstünü çiçəklə bəzə,
Xumar baxışına can gərək dözə.
Sənanın dağına çıx gəzə-gəzə,
Tərlətsin laləni yanağın sənin.

Tökmə ağ üzünə qara zülfünü,
Könlüm də ordadır – ara zülfünü.
Ehtiyatla hərdən dara zülfünü,
Qoy düşüb itməsin darağın sənin.

Sən gəzən yerlərdə özgə hal olar,
Güllər ayağına payimal olar,
Bir kəlmə danışsan tuti lal olar,
Güldürər qönçəni dodağın sənin.

Vahidəm, eşqinlə dastan qoşaram,
Başqa gözəllərdən uzaqlaşaram,
Ölmərəm, dünyada yüz il yaşaram
Gər olsam bir gecə qonağın sənin.

1940-1964

QIZIL ORDU

Qızıl Ordu girən kimi meydana,
Saldı faşizmin canına muryana.

Göstəririk düşmənə öz həddini,
Hey yarırıq müdafiə xəttini,
Bu dərd əyibdir Hitlerin qəddini,
Möhtac olub indi dava, dərmana,
Qızıl Ordu girən kimi meydana.

Təyyarəmiz buraxdıqca qumbara,
Qorxusundan düşmən girir ambara,
Hitlerin qəlbinə dəyir min yara,
Ağlı çaşır, olur dəli-divana,
Qızıl Ordu girən kimi meydana.

Əsgərimiz atanda əl bombasın,
Yıxır yerə faşistlərin gombasın,
Biri qıçın tutur, biri ombasın,
Səksəni birdən yıxılır yan-yana,
Qızıl Ordu girən kimi meydana.

Hitler hələ plan çəkir xülyada,
Bu günləri gətirməyirdi yada,
Flotmuzun gücün görcək dəryada,
Deyir, yaman düşdü başım tufana,
Qızıl Ordu girən kimi meydana.

Qüssəsindən Hitler olubdur dəli,
Çox yaşamaz qan soran bir zəli,
Çıxdı boşa arzularından əli,
Dad eləyib, gəlir ahü əfqana,
Qızıl Ordu girən kimi meydana.

Bir zamanlar basmışdı Göbbels gopa,
Guya olarladır bütün Avropa,
Əksinə, özlərin basıblar topa,
Hər tərəfdən başlayıb el üsyana,
Qızıl Ordu girən kimi meydana.

Düşmənin ömrünə yetibdir xəzan,
Məhv olar axırda yolundan azan!
Əldə tüfəng minlər ilə partizan,
Düşmənə od vurur mərdü mərdana,
Qızıl Ordu girən kimi meydana.

Düşmən bizə gəlməsin boş-boş hədə,
Bir də onu qoymarıq əl tərpədə,
Biz hamı bir can kimi ilk cəbhədə,
Arxada milyon dayanıb milyona!..
Qızıl Ordu girən kimi meydana.

Bir təzə xəstəlik tutub Hitleri,
Qudurmuş it kimi qapır hər yeri,
Musselin də onun köhnə kuryeri,
Hitler üçün dönüb qotur madyana,
Qızıl Ordu girən kimi meydana.

Vermirik heç zalım əduyə fürsət,
Onlardan hər gün alırıq qənimət,
Əvvəl axır bizimdir qalibiyyət,
Tülkü-mülkü neylər igid aslana!
Qızıl Ordu girən kimi meydana.

Az deyil ordumuzda Bəxtiyarlar,
İsrafillər, Kamallar minlərlə var!
Koroğludan qalıb bizə yadigar,
Bizim ərlər aman verməz düşmana!
Qızıl Ordu girən kimi meydana.

Cürət verir bizə Lenin bayrağı,
Neyləyəcək bizə hər alçaq yağı,
Fərhad kimi çapır ordumuz dağı,
Külüngümüz nərə salır hər yana!
Qızıl Ordu girən kimi meydana.

ƏSGƏR NƏĞMƏSİ

Çox cəbhələr yarıb igid ordumuz,
Bizimlə qorunmuş gözəl yurdumuz,
Dünyalar coşsa da, yoxdur qorxumuz,
Əməkçi oğluyuq, cəsur əsgərik,
Döyüş zamanında igid ərlərik!

Ölkəmizə qızıl bayraq vurmuşuq,
Sosializmin əsasını qurmuşuq,
Xalqın keşiyində möhkəm durmuşuq,
Əməkçi oğluyuq, cəsur əsgərik,
Döyüş zamanında igid ərlərik!

Durmaz qarşımızda ümmanlar bizim,
Yenməz qüvvəmizi tufanlar bizim,
Bilir gücümüzü duşmanlar bizim,
Əməkçi oğluyuq, cəsur əsgərik,
Döyüş zamanında igid ərlərik!

SƏRHƏDÇİ NƏĞMƏSİ

Ey Vətən, ey əziz istəkli yurdum,
Sənin qiymətini kimdən ki, sordum
Səni müqəddəs bir ana dedilər,
Bilsən ki, sevirəm səni nə qədər!
Görməz xəyalınla gözlərim yuxu,
Məni düşündürməz bir başqa duyğu.
Bir sənin eşqinlə xoş keçər günüm,

Haqlıyam, mən əgər daim öyünüm.
Vətənin qədrini bilməyən dəni,
Elinin, yurdunun odur düşməni.
Vətəndir insana ən böyük şərəf,
Anasız körpələr tez olar tələf.
Ey ana torpağım, ey Vətən yaşa!
İndi ki çatdırdın məni bu yaşa.
Qorxacaq deyiləm, igid oğlunam,
İgidlər yetirən, ey əziz anam!
Mənim zəhmətimi az çəkməmisən,
Məni cəsarətlə sən bəsləmisən.
Borcluyam, hər zaman qoruyam səni,
Hazıram əzməyə xain düşməni.

YÜKSƏL

"Kommunist" qəzetinin 25 illiyinə

Yüksəl, cavan oğlan, yaş iyirmi beşə çatdı,
Bundan belə düşmənlərinin bayrağı yatdı.

Fikrin, qələmin ox kimi batdı cühəlayə,
Hər bir kəsə təsirin olub payəbapayə,
Ariflərə, rəssamə, ədibə, şüərayə.
Loğman kimi çox xəstəni tədbirin oyatdı,
Yüksəl, cavan oğlan, yaş iyirmi beşə çatdı.

Dünyada nə bir hadisə olsa, biləcəksən,
Bədxahların ağlayacaq, sən güləcəksən.
Düşmənlər əzildikcə baxıb yüksələcəksən.
Tez məhv olacaq, kim sənə xayinco əl atdı,
Yüksəl, cavan oğlan, yaş iyirmi beşə çatdı.

Gənc yaşlı müəllim sanır hər kəs səni gəndən,
Çoxdur biliyin, təcrübən hər rindi-kuhəndən.
Yüz yaşlı müəllimlər alır tərbiyə səndən.
Hər ölkədə elmin, hünərin qol-budaq atdı,
Yüksəl, cavan oğlan, yaş iyirmi beşə çatdı.

Sən bir ləkəsiz ayinəsən kütlə gözündə,
Kim baxsa sənə tez görər öz eybin üzündə.
İslahına möhtacdır aləm yer üzündə,
Tənqidlərin min möcüzə aləmdə yaratdı,
Yüksəl, cavan oğlan, yaş iyirmi beşə çatdı.

OLSUN

Gözəlim, pərişan etmə zülfünü,
Günəştək gül üzün qoy aşkar olsun,
Ellər camalını görməyə gəlsin,
Dost-aşna sevinsin, düşmən xar olsun!

Nəğmələr yüksəlsin kaşanələrdən,
Badələr süzülsün peymanələrdən,
Qalmasın bir əsər biganələrdən,
Elimiz, günümüz bəxtiyar olsun!

Ürəkdən sevirəm, sevgilim, səni,
Tale bizimlədir, əzdik düşməni.
Can kimi qoruyaq əziz vətəni,
Tarixlər boyunca yadigar olsun!

Səadət yolunda biz candan keçdik,
Bu günün eşqinə badələr içdik.
Vətəni istəyən oğullar seçdik,
Onlar yurdumuza havadar olsun!

Yaymalı hər yana bu şad xəbəri,
Seçmişik birinci böyük rəhbəri.
Dönsün gülüstana sovet elləri,
Arzumuz dünyada payidar olsun!

VƏTƏN

Dumanlı dağların başında durdum,
Dumandan özümə bir xeymə qurdum.
Keçdi xəyalımdan o gözəl yurdum,
Dumanlar başımda duman göründü.

Gəmimiz Suxuma çatan çağında,
Hiddətli dalğalar yatan çağında,
Günəşin üfüqdə batan çağında,
Sahillər qarşımda ümman göründü.

Qara dəniz kimi eşqimlə coşdum,
Xülyalar içində sanki bihuşdum,
Vətən arzusilə nəğmələr qoşdum,
Tufanlar gözümə dastan göründü.

Dünyalar cəzb edən bu xoş mənzərə,
Şövqümü artırdı gözəl Xəzərə,
Çarpdıqca vətənim, elim nəzərə
Təbiət də mənə heyran göründü.

Deyirlər, bülbülə çəmən yaxşıdır,
İnsana laləzar Vətən yaxşıdır.
Vahid! Sorma, Vətən nədən yaxşıdır,
Adı gəlcək könlüm göründü.

OLUR

Cəfər Xəndana

Şairim, xatirin küsməsin məndən,
Dostluq arasında nəzakət olur.
Razıyam, deyiləm, narazı səndən,
Namərdin qəlbində ədavət olur.

Mən də bir şairəm, tanıyır aləm,
Azaddır mətbuat, azaddır qələm,
Həyatdan yazmağa aciz deyiləm,
Şairçün hər yolda məharət olur.

Şerlər yazarkən oxurdum sənə,
Hər nə günahım var, səndədir yenə,
Deməydin səhvimi əzəldən mənə,
Arifə bir kəlmə kifayət olur.

Mən necə ayrılım rəna qəzəldən,
İşvəli dilbərdən, nazlı gözəldən?
İnsan ki, bir şeyə uydu əzəldən,
Ölüncə başında o adət olur.

Məhv olsun dünyada xalqın düşməni,
Mən də çox sevirəm əziz vətəni,
Vətənin qədrini bilməyən dəni,
Özü xəlq içində xəcalət olur.

Elimin zəfəri, qalibiyyəti,
Hər işdə mərdliyi, fəaliyyəti,
Qoymuşdur heyrətdə bəşəriyyəti,
Çox çəkməz, ölkəmiz bir cənnət olur.

Mənə qəzəlçilik, sanma şü, ardır,
Mənim vətənim tək sevgilim vardır.
Mənə ilham verən bu şən diyardır,
Vətəndən kütləyə səadət olur.

Eyni həqiqətdi, sözüm laf deyil.
Vahidəm, məqsədim ixtilaf deyil.
Əlli bir yaşımda bu insaf deyil,
Hər yerdən üstümə məzəmmət olur.

BU BAYRAMDA

Könüllər şad olan gündür – bu bayramda, bu bayramda,
Vətən azad olan gündür – bu bayramda, bu bayramda.

Vətən gülzarı açmışdır çiçəklər, nazənin güllər,
Qərənfillər budağında gəlir ilhama bülbüllər,
Əsarətdən xilas oldu bütün məhkum olan ellər,
Cahan abad olan gündür – bu bayramda, bu bayramda,
Vətən azad olan gündür – bu bayramda, bu bayramda.

Günəşdən, aydan, ulduzdan xəbər verdik bu qırx ildə,
Azərbaycan səfaləndi, ziyaləndik biz hər dildə,
Maarif, elm çiçəkləndi bizim yurdda, bizim eldə,
Könüllər şad olan gündür – bu bayramda, bu bayramda,
Vətən azad olan gündür – bu bayramda, bu bayramda.

Bu Aprel inqilabilə gərək fəxr etmək aləmdə
Ki, onsuz xalqımız qalmışdı daim möhnətü qəmdə,
Azərbaycanlılar, Vahid, gərək şad olsun hər dəmdə,
Könüllər şad olan gündür – bu bayramda, bu bayramda,
Vətən azad olan gündür – bu bayramda, bu bayramda.

KÜSMÜSƏN MƏNDƏN

Eşitdim, sevgilim, küsmüsən məndən?
Qaçırma bülbülü öz çəməninndən.
Mənimlə düz dolan, küsərəm səndən,
Məndə dostluq da var, biganəlik də.

Bir sənsən bu məcnun könlümə uyğun,
Sənin camalına olmuşam vurğun,
Hər Leyli eşqinə deyiləm Məcnun,
Məndə kamal da var, divanəlik də.

Bütün bu dünyanı gəzdim, dolandım,
Bir səni özümə vəfalı sandım,
Sən gəzdin özgəylə, od tutub yandım,
Məndə atəş də var, pərvanəlik də.

Əzəldən demişəm sənlə yaram,
Yolunda ölsəm də, bil, bəxtiyaram,
Dediyim sözümdə mən yenə varam,
Məndə kəclik də var, mərdanəlik də.

Vahid, bu bir sözün min lələ dəyər,
Mənə gərək deyil nə sərvət, nə zər!
Təbim xəzinədir, sözlərim gövhər,
Məndə gənclik də var, piranəlik də.

SEVGİLİM

Sevgilim qaşların çatıb baş-başa,
Hüsnünə etməyə hər gün tamaşa
Üfüqlərdən çıxır hər səhər qoşa
Günəş bir tərəfdən, ay bir tərəfdən.

Çoxdandır kəsmisən məndən nəzərin,
Yanıram eşqinə yoxdur xəbərin,
Çəkibdir qəsdimə cəllad gözlərin,
Kaman bir tərəfdən, yay bir tərəfdən.

Sən yeri arxanca zülfün sürünsün,
Sünbüllər al-yaşıl dona bürünsün,
Günəş camalın aç, aşkar görünsün,
Bahar bir tərəfdən, yay bir tərəfdən.

Həsrətin yandırır pərvanələri,
Qoyma yaxınına biganələri,
Açma zülfündəki divanələri,
Bağla bir tərəfdən, say bir tərəfdən.

Oxunsun elimin zəfər nəğməsi,
Vahidin qəzəli, Xanın[1] xoş səsi,
Yenə də bəzəsin bizim məclisi,
Şərbət bir tərəfdən, çay bir tərəfdən.

[1] Müğənni Xan Şuşinski

GÖZLƏRİN

Sevgilim, el bilir mən əhli-dərdəm,
Səndən başqasını sevsəm namərdəm.
Qüssədən ölürəm, neylim ki, hər dəm,
Məni qoyub baxır yana gözlərin.

Kipriyin xəncərdir, qaşların kaman,
Yıxdığın acizə vermәzsən aman.
Dedilər cəlladsan, etməzdim güman,
Salacaqdır məni qana gözlərin.

Sənin əlindədir hər ixtiyarım,
Zalım, öldür məni qəmdən qurtarım,
Bəs kimə söyləyim, kimə yalvarım,
Gətiribdir məni cana gözlərin.

Könlümü salacaq zülfün kəməndə,
Həsrətin qoymayıb can qalsın məndə,
O gözlər var ikən nə qədər səndə,
Alacaq könlümü sona gözlərin.

Vahidəm, sevgilim, mən də qanıram,
Fitnəkar gözəli üzdən tanıram,
Necə deyim sənə, qəmdən yanıram,
Mənim tək od tutub yana gözlərin!

SEVGİLİM

Mahnı

Üzündə təzədir xalın,
Əlində güllü dəsmalın,
Can almaq isə xəyalın,
Ax, tez elə, tez elə, tez elə,

Qaş-göz elə, göz elə, göz elə.
Yolunda candan keçərəm, sevgilim,
Ay əziz canına and içərəm, sevgilim!

Bülbüləm, boş dolanmaram,
Cəh-cəhindən dayanmaram,
Bundan sonra inanmaram
Hər gözələ, gözələ, gözələ,
Qaş-göz elə, göz elə, göz elə.
Yolunda candan keçərəm, sevgilim,
Ay əziz canına and içərəm, sevgilim!

Gül sənintək deyil göyçək,
Eşitmişəm yalan-gerçək;
Aran rəqiblə dəyəcək.
Ax, tez elə, tez elə, tez elə,
Qaş-göz elə, göz elə, göz elə.
Yolunda candan keçərəm, sevgilim,
Ay əziz canına and içərəm, sevgilim!

DƏLİ CEYRAN

Mahnı

Gözəlim, aşiqini salma nəzərdən,
Həsrətindən ölürəm, gəl bizə hərdən.
Sənə çoxdan vurulub bu dəli könlüm,
Neyləyim ki, xəbərin yoxdu xəbərdən.
Gəl mənə naz eləmə, ay dəli ceyran,
O qara gözlərinə olmuşam heyran.

Bir dönüb baxmaq ilə canımı aldın,
Məni Məcnun eləyib çöllərə saldın.
Mən inandım sənə, öz könlümü verdim,
Məni atdın, gedib əğyar ilə qaldın.
Gəl mənə naz eləmə, ay dəli ceyran,
O qara gözlərinə olmuşam heyran.

Sən gəzirsən, gözəlim, qeyrilə mənsiz,
Yuxu getməz gözümə bir gecə sənsiz.
Özün insaf elə, ey sevgili dilbər,
Hansı bülbül yaşayar bağü çəmənsiz?
Gəl mənə naz eləmə, ay dəli ceyran,
O qara gözlərinə olmuşam heyran.

TƏSDİS

"Yansın dilim ağzımda, desəm, nazüvi az et,
Naz et mənə, ey sevgili canan, mənə naz et".

Əvvəl baxışında məni heyran elədin sən,
Bir incə gülüşlə ürəyim qan elədin sən,
Sonra məni bir lütf ilə xəndan elədin sən,
Kafər qızı, axır məni Sənan elədin sən,
"Yansın dilim ağzımda, desəm, nazüvi az et,
Naz et mənə, ey sevgili canan, mənə naz et".

Xəlq eyləmiş öz keyfi gələndə səni tari,
Öldür, bu bəladan məni qurtar, səni tari!
Rəhm et mənə, biganəyə naz eyləmə bari,
Alqış, elə bir aşiqə, var sən kimi yari,
İnsaf elə öz aşiqini məhrəmi-raz et,
"Naz et mənə, ey sevgili canan, mənə naz et".

Ayinəni heyrətdə qoyub əksi-camalın,
Xurşidi xəcalətdə qoyub arizi-alın.
Aşiqləri həsrətdə qoyub zülf ilə xalın,
Bəlkə, ola qismət bizə gülzari-vüsalın.
Hərdən bu sınıq könlümü bir lütfilə saz et,
"Naz et mənə, ey sevgili canan, mənə naz et".

Gördüm, gözəlim, özgəyə sən naz eləyəndə,
Az qaldı ki, ruhum uça, can qalmadı məndə.
Bu nazü nəzakət var ikən bir belə səndə,
Dərd əhli, inan, düşməyə bilməz bu kəməndə,

Daim bu gözəl xilqətə min razü niyaz et,
"Naz et mənə, ey sevgili canan, mənə naz et".

Tiflis şəhərin eyləmiş hər kimsə ki icad,
Tari eləsin ruhini aləmdə, görüm, şad.
Cənnət ki, deyirlər, edib icad onu Şəddad,
Burdan aparıb huriyi qılmanü pərizad.
Yarəb, bu pəri çöhrələri bəndənəvaz et,
"Naz et mənə, ey sevgili canan, mənə naz et".

Dünya üzünə yaxşı gözəllər gəlib hərçənd,
Olmaz sənə bir ölkədə nə misl, nə manənd,
Təbriz, Bakı, Tehran, Şəki, Şirvan, Quba, Dərbənd,
Gəncə, Qarabağ, şəhri-Buxaravü Səmərqənd.
İstərsən əgər, əzmi-rəhi-mülki-Hicaz et,
"Naz et mənə, ey sevgili canan, mənə naz et".

Olma, gözəlim, surətinə bir belə məğrur!
Mən etmişəm eşqimlə səni aləmə məşhur,
Hicrində məni eyləmə qəm çəkməyə məcbur,
Bir dəm hərəmi-vəslilə et qəlbimi məsrur.
Dərgahə məni qul deyə manəndi-Əyaz et,
"Naz et mənə, ey sevgili canan, mənə naz et".

Vaiz, elə zənn eyləmə, həqqi danıram mən,
Nə Kəbə, nə bütxanə, nə məscid tanıram mən,
Lakin özümü həqq sevən insan sanıram mən,
Dünyada fəqət bircə məhəbbət qanıram mən!
Sən, get, hələ ölmüşlərə təklifi-nəmaz et,
"Naz et mənə, ey sevgili canan, mənə naz et".

Vahid, demə, mən daimiyəm zövqü səfadə,
Mənsuri[1] də yad etməliyik dari-fənadə.
Bu misrəyi-nazi o demiş bir belə sadə,
Yarəb, sən ona rəhmətini eylə ziyadə.
Qəbr içrə onun ruhini lütfünlə fəraz et,
"Naz et mənə, ey sevgili canan, mənə naz et".

[1] Şair Səməd Mənsur Kazımzadə

FÜZULİDƏN TƏXMİS

Diyari-eşqə sultanəm, bəlalər çox çəkib başım,
Cəlali-şövkətim qəmdir, hücumi-dərd fərraşım,
Ömürlərdir axar kuyində yarın qanlı göz yaşım,
"Degilsən çoxdan, ey gərdun, cahan seyrində yoldaşım,
Nola xəm olsa qəddin, səndən artıqdır mənim yaşım".

Xəyal eylər görən, bir bülbüləm gülzari-eşq içrə,
Yaxar gülzari nalem ahi-atəşzari-eşq içrə,
Məni sevdayi-həsrətdür yıxan azari-eşq içrə,
"Tərazuyi-əyari-möhnətəm bazari-eşq içrə,
Dolub hər dəm gözüm, min daşə hər saat dəyər başım".

Görüb rüsvalığım eşqində yarın, tən edər hər kim,
Bəlalər çəkməyə guya məni çərx eyləmiş təhkim,
Fələkdən başıma daşlar yağır, qılmaq dilər tərkim.
"Sirişkim al, bağrım parə, bir kuhi-bəlayəm kim,
Həmişə laləvü ləl ilə rəngindir içim, taşım".

Həyatı aşiqin eşq olmasa, əfsanə bir röya,
Məhəbbətdir fəqət pəjmürdələr qəlbin edən əhya,
Məni aşiq doğub, qoynunda yalnız bəsləmiş dünya,
"Mənə manənd bir divanəsurət bağlamaz guya,
Qələm sındırdı təsvirim çəkəndən sonra nəqqaşım".

Sevinci könlümün yar etdiyi qəhri-qəzəbdəndir,
Vəfadə sabit olmaq aşiqə əslü nəsəbdəndir,
Cəfaye dözməmək, Vahid, demə, rəsmi-ədəbdəndir.
"Füzuli, xazini-gənci-vəfayəm, ol səbəbdəndir,
Cühərlər tökdü israf ilə bu çeşmi-gühərpaşim".

BİZİM OLSUN

Sevgilim, bu bağda biz də bağbanıq,
Bu gül, bu laləzar, qoy bizim olsun!

Özümüz zövq alaq güllərimizdən
Bü gülşən, bu bahar, qoy bizim olsun!

Bu ellər bağıdır, indi biz gərək,
Hamımız bir yerdə əkib-becərək.
İzn ver, bu bağdan biz də gül dərək,
Səfalı ruzigar, qoy bizim olsun!

Hamının payı var ana vətəndə,
Tək durma, gəl qoşul bizimlə sən də,
Bülbültək səsləşək bağda, çəməndə,
Təbiətdə nə var, qoy bizim olsun!

Demişlər bu sözü bizdən qocalar,
Elindən ayrılan çox tez qocalar,
Barıyla hər ağac artar, ucalar,
Şad ellər, şən diyar, qoy bizim olsun!

Dünya ellərinin bəxtiyarıyıq,
Sülhün, ədalətin bayraqdarıyıq,
Məzlum insanların tərəfdarıyıq,
Sədaqət, etibar, qoy bizim olsun!

Mən ki ayırmıram eldən özümü,
Dikmişəm xalqıma iki gözümü.
Vahidəm, sevgilim, bu bir sözümü,
Saxlayaq yadigar, qoy bizim olsun!

BU CEYRAN

Ey əhli-dərdlər, dinləyin məni,
Əqlimi başımdan aldı bu ceyran!
Sağalmaz dərdlərə günahsız yerə,
Neyləmişdim, məni saldı bu ceyran!

Göz-qaşla oynayır özü-özüylə,
Məni gözdən salıb özgə sözüylə,
Bu quzu könlümü sərxoş gözüylə,
Şahmar ilan kimi çaldı bu ceyran!

Aslanlar yurdudur şərəfli yurdum,
Çox ceyran qovlayıb, hürkütdüm, yordum,
Eşqin tələsini hər yanda qurdum,
Kəməndə düşməmiş qaldı bu ceyran!

Bu sözlə eylərəm mən təfaxiri,
Vəfasız gözəlin olmaz axırı,
Vahid, deyirlər ki, aşıq Şakiri
Eşqin bəlasına saldı bu ceyran.



GƏLDİ "BABAYİ-ƏMİR..."

Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.

Tərk ola bundan belə mehrü məhəbbət gərək,
Saxlayalım dəhri də canı səlamət gərək,
Eyləyəlim cümləmiz tərki-ticarət gərək,
Cəhlə tərəf getməyi eyləyək adət gərək,
Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.

Cümlə verib əl-ələ qeyriyə imdad edək,
Səy qılıb ruzü şəb, dəhrdə bir ad edək,
Məktəbi-şürbü qumar cəhd edib icad edək.
Bəlkə qəmü qüssədən könlümüzü şad edək.
Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.

Məhv ola tezliklə bu hali-pərişanımız,
Himmət edək qalmaya zərrəcə nöqsanımız,
Zillət ilə çıxmaya həsrət ilə canımız,
Qoymayın, əldən gedə şövkətimiz, şanımız,
Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.

Dəmdir, açа uyqudan çeşmini xürdü kübar,
Olmalıyıq cümləmiz millətə xidmət güzar,
Annalara eyləyək eşq ilə canlar nisar.
Məscidi, minbərləri eyləyəlim tarümar,
Gəldi "Babayi-Əmir" işləri samanlasın,
Fürsət ikən hər kişi öz işini anlasın.